Azərbaycan Respublikasının
İqtisadiyyat Nazirliyi yanında
Antiinhisar və İstehlak Bazarına
Nəzarət Dövlət Xidməti

# BMT-nin ƏRZAQ və KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ (FAO) 2022-ci ilin MAY AYINDA AÇIQLADIĞI ƏRZAQ QİYMƏTLƏRİNİN İNDEKSİ

# ÜMUMİ MƏLUMAT

- FAO Ərzaq Qiymətləri İndeksi (FFPI) 2022-ci ilin aprel ayında orta hesabla **158.5-ə** bərabər olmuşdur. Bununla da ərzaq qiymətləri indeksi mart ayı ilə müqayisədə **0.8 % azalıb** və ötən ilin müvafiq dövrü ilə müqayisədə isə **29.8% artıb**.
- Son qiymət azalmasının əsas səbəbləri:
  - ✓ *bitki yağları*
  - ✓ *dənli bitkilərin alt indekslərində olan azalmalardır.*
- *Şəkər, süd və ət məhsullarında* isə qiymət artımları müşahidə olunur.




Qeyd: 2022-ci ilin yanvar - aprel ayları üzrə

# TAXIL MƏHSULLARI (DƏNLİ BİTKİLƏR)



- Taxıl məhsullarının qiymət indeksi aprel ayında orta hesabla **169.48 bənd** təşkil edib:
  - ✓ 2022-ci il mart ayına nisbətən **0.65 bənd (0.4 %) azalıb**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **43.28 bənd (34.3%) artıb.**
- Taxıl məhsullarının qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - ✓ Argentina və Braziliyada mövsümi qarğıdalı yığımının başlaması ilə mövcud bazar təzyiqlərinin azalması (təklifin artması fonunda)
  - ✓ Digər taxıl məhsulu olan **sorqonun** qiymətinin aprel ayında **0.4% azalması**
- Taxıl məhsullarının qiymət indeksini təzyiq altında saxlayan amillər:
  - ✓ Ukraynada taxıl məhsullarının ixracatı ilə bağlı logistik problemlər
  - ✓ Asiya regionunda düyüyə yüksək tələbat
  - ✓ Amerika Birləşmiş Ştatlarında (ABŞ) məhsul yığımı və istehsalı ilə bağlı problemlərin yaranması



# Bitki yağları üzrə



- Bitki yağı Qiymətləri İndeksi aprel ayında orta hesabla **237.5 bənd** təşkil edib:
  - ✓ mart ayına nisbətən **14.3 bənd (5.7 %) azalıb**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **75.3 bənd (46.4%) artıb.**
- Bitki yağları qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - ✓ Dünyanın ən böyük palma yağı ixracatçısı olan İndoneziyada ixracla bağlı qeyri-müəyyənliklərin davam etməsinə baxmayaraq, Çinin palma yağına olan tələbinin azalması (yüksək qiymətlər fonunda)
  - ✓ Son dövrlərdə müşahidə edilən yüksək qiymətlər fonunda soya və günəbaxan yağlarına tələbin daralması nəticəsində qiymətilərin azalması



# SÜD MƏHSULLARI

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti

- Süd məhsullarının Qiymətləri İndeksi aprel ayında orta hesabla **147.1 bənd** təşkil edib:
  - ✓ mart ayı ilə müqayisədə **1.3 bənd (0.9 %) artıb**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **28 bənd (23.5%) artıb**

- Süd məhsullarının qiymət indeksinin artmasının əsas səbəbləri:
  - ✓ Qərbi Avropa və Okeaniyada gözləniləndən aşağı süd təklifi nəticəsində qlobal təchizatın azalması
  - ✓ Günəbaxan və marqarin təklifinin azalması nəticəsində kərə yağına artan tələbat fonunda
  - ✓ Pendir və süd tozunun qiymətinin artması



# ƏT MƏHSULLARI

- Ət Qiyməti İndeksi aprel ayında orta hesabla **121.92 bənd** təşkil edib və FAO tarixində (1990-cı ildən bu yana) **yeni rekord həddə çatıb**:
  - ✓ mart ayına nisbətən **2.66 bənd (2.2%) artıb**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **17.57 bənd (16.8%) artıb**

- Ət məhsulları üzrə qiymət indeksinin artmasının əsas səbəbləri:
  - ✓ Quş ətinin qiymətinin artması – Ukraynada ixracatda yaranan problemləmlər və şimal yarımkürəsində quş qripi epidemiyası
  - ✓ Bəzi əsas istehsalçı regionlarda ətlik mal-qara təklifinin azalması



# ŞƏKƏR



- Şəkər Qiymət İndeksi aprel ayında orta hesabla **121.8 bənd** təşkil edib:
  - ✓ mart ayına nisbətən **3.9 bənd (3.3 faiz) artıb**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **21.8 bənd (21.8%) artıb**

- Şəkər məhsulları üzrə qiymət indeksinin artmasının əsas səbəbləri:
  - ✓ Braziliya realının ABŞ dollarına qarşı davamlı olaraq möhkəmlənməsi ilə istehsalçıların təklifi azaltması (yerli valyutada aşağı gəlirlər fonunda)
  - ✓ Braziliyada yüksək etanol qiymətləri

